**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 7/3

Bakı şəhəri 14 mart 2018-ci il

Elmi tədqiqat proqramlarının respublika
müsabiqəsinin nəticələri haqqında

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 20 dekabr 2017-ci il tarixli 14/34 nömrəli qərarı ilə 2018-2020-ci illər üçün elmi tədqiqat proqramlarının işlənməsi, seçilməsi və maliyyələşdirilməsi məqsədilə respublika müsabiqəsi elan edilmişdir. Müsabiqəyə 78 elmi tədqiqat proqramı təqdim olunmuşdur. AMEA-nın müvafiq elmi bölmələri tərəfindən həmin elmi tədqiqat proqramlarının ekspertizası təşkil edilmiş və maliyyələşdirilməsi tövsiyə olunan proqramlar müəyyənləşdirilərək AMEA Rəyasət Heyətinin müzakirəsinə təqdim olunmuşdur.

AMEA-nın elmi bölmələrinin vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Bu qərara əlavə olunmuş siyahıda göstərilən elmi tədqiqat proqramları maliyyələşdirilsin (əlavə olunur).
2. AMEA-nın elmi bölmələrinə və AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, proqramların icrasına müntəzəm nəzarət edilsin və ildə 2 dəfə proqramların icrası ilə bağlı hesabatlar dinlənilsin.
3. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, proqramların maliyyələşdirilməsi ilə bağlı məsələlər müəyyən olunmuş qaydada həll edilsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT